# Azərbaycan və Türk ölkələri sənətşünaslığının aktual problemləri

**Dekabrın 18-də AMEA-nın Əsas binasında Memarlıq və İncəsənət İnstitutunun təşkilatçılığı ilə "Azərbaycan və Türk ölkələri sənətşünaslığının aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**



Tədbiri giriş sözü ilə Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə açaraq Türk dünyası ilə əlaqələrin gücləndirilməsinin institutun prioritet istiqamətlərindən biri olduğunu bildirib. O, Prezident İlham Əliyevin "Türk Dövlətləri Təşkilatı bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır", - fikirlərinin Türk dünyası üçün yol xəritəsi rolunu oynadığını vurğulayıb.

Ərtegin Salamzadə türk dövlətləri arasında bütün sahələrdə, o cümlədən elm və mədəniyyət sahələrində əlaqələrin uğurla inkişaf etdiyini deyərək, türk dövlətlərinin elmi, mədəni, mənəvi bağlarının dərin təhlili, tarixi əsasları, vahid kökləri, ortaq dəyərləri və müştərək maraqlarının elmi şəkildə təşviqi baxımından konfransın önəmini qeyd edib.

O, AMEA-nın, eləcə də Memarlıq və İncəsənət İnstitutunun 80 illiyinə həsr edilmiş beynəlxalq tədbirin işində Türkiyə, Özbəkistan və Qırğızıstandan olan elm adamlarının iştirak etdiyini diqqətə çatdırıb.

Direktor, həmçinin bu il tanınmış ictimai xadim, kulturoloq, professor Çingiz Abdullayevin 65 yaşının tamam olduğunu söyləyib, alimin elmi-pedaqoji fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, professor Çingiz Abdullayev Azərbaycan elminin inkişafı, ölkəmizin dünyada tanıdılması istiqamətində çox işlər görüb, Azərbaycanla yanaşı, Almaniya, İngiltərə və Türkiyədə kitablar çap etdirib.

Alimin elmi araşdırmalara əsaslanan "Kardaş ülkeler", türk və ingiliscə nəşr olunan "Türkiyənin multikultural mühiti" kitablarını xüsusi qeyd edən Ərtegin Salamzadə onun bir sıra sənədli filmlərin məsləhətçisi və ssenari müəllifi olduğunu da söyləyib. O, professor Çingiz Abdullayevin səmərəli elmi fəaliyyəti və anadan olmasının 65 illiyi münasibətilə institutun Fəxri fərmanı ilə təltif olunduğunu diqqətə çatdırıb, mükafatı alimə təqdim edib.

Çıxışının sonunda Ərtegin Salamzadə beynəlxalq konfransı Azərbaycan və türk ölkələri sənətşünaslığının aktual problemlərinə həsr olunmuş əhəmiyyətli tədbir kimi yüksək dəyərləndirib. O, konfransın Türk dünyası ölkələrinin elmi qurumları ilə mövcud əməkdaşlığın daha da möhkəmləndirilməsinə, yeni ortaq elmi layihələrin formalaşmasına töhfə verəcəyinə əminliyini ifadə edib, beynəlxalq tədbirin işinə uğurlar arzulayıb.

Sonra Özbəkistan Təsviri İncəsənət Qalereyasının direktoru, Özbəkistan Rəssamlıq Akademiyasının akademiki Kamola Akilova çıxış edərək iki ölkə arasındakı dostluq münasibətlərinin tarixi köklərimizə dayandığını, müasir dövrdə isə bu əlaqələrin daha da genişləndirildiyini söyləyib. Qeyd edib ki, əlaqələrimizin bu səviyyəyə çatmasında başlıca amil kimi Prezident İlham Əliyevlə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasındakı qardaşlıq münasibətləri dayanır və dövlət başçılarımızın açdığı geniş meydan elm və mədəniyyət sahəsində də münasibətlərin inkişafına təkan verir.

O, Türk dünyası ölkələri arasında elm, təhsil, incəsənət və mədəniyyət sahələrində əməkdaşlığın inkişafında alim və mütəxəssislərin üzərinə böyük məsuliyyətin düşdüyünü vurğulayıb.

Daha sonra akademik Kamola Akilova AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun 80 illik yubileyi münasibətilə Özbəkistan Təsviri İncəsənət Qalereyasının təbrik ünvanını səsləndirib.

O, həmçinin türk dövlətləri arasında elmi əlaqələrin inkişafındakı xidmətlərinə görə AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin Özbəkistan Rəssamlıq Akademiyasının xarici fəxri üzvü seçildiyini bildirib və alimə üzvlük vəsiqəsini təqdim edib.

Konfransda akademik Kamola Akilovanın "Özbəkistan sənətşünaslığının aktual problemləri (İslam Sivilizasiyası Mərkəzinin materialları əsasında)", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ahmet Aytaçın (Türkiyə) "Türk dünyasında ənənəvi incəsənət tənqidində müasir nəzəriyyənin bərabərsizliyi", kulturologiya üzrə fəlsəfə doktoru Venera Asilbekovanın (Qırğızıstan) "Türkdilli ölkələrin mədəniyyəti və incəsənəti: varislik, innovasiyalar və inteqrasiya perspektivləri", memarlıq üzrə fəlsəfə doktoru, dosent Rahibə Əliyevanın "Akademik Mikayıl Useynovun praktiki və elmi fəaliyyəti", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ülkər Talıbzadənin "Akademik Zemfira Səfərova və musiqişünaslıq elmi" adlı məruzələri dinlənilib.

Beynəlxalq tədbirdə, həmçinin Memarlıq və İncəsənət İnstitutunun elmi işlər üzrə direktor müavini dosent Xəzər Zeynalov "Azərbaycan təsviri sənətinin inkişaf mərhələləri", elmi katib sənətşünaslıq üzrə fəlsəfə doktoru Ramil Quliyev "İnstitut alimlərinin əsərlərində miniatür sənətinin tədqiqi", professor Rəna Abdullayeva "İncəsənət və mədəniyyət problemləri" jurnalında türkoloji problemlər", şöbə müdiri sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aidə Sadıqova "Xalçaşünaslıq elminin təşəkkülündə İnstitut alimlərinin rolu", şöbə müdiri dosent Vidadi Qafarov "İnqilab Kərimovun elmi irsi Türk ölkələri sənətşünaslığının ortaq dəyəri kimi" və institutun elmi işçisi Əlləz Əhmədov "İnstitutun gənc alimlər şurasının fəaliyyəti" mövzusunda məruzələrini təqdim ediblər.

Elm .- 2025.- 26 dekabr (№42).- S. 6.